Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Əzizə
Cəfərzadə

# Qızımın hekayələri



Azf- 291912

Əzizə Cəfərzadə

# Qızımın hekayələri



Azərbaycan Milli
Kitabxanası

AZƏRBAYCAN
DÖVLƏT NƏŞRİYYATI
Bakı - 1964





## DİYİRCƏKLİ ARABA

Qızım Kəmalə balaca idi. Həmişə bizim asfalt döşənmiş iri həyətdə oynayırdı. Amma balaca olduğu üçün böyüklər onu oynamağa çağırmırdılar. O da bundan incik halda kənarda durub ya tamaşa edir, ya da özü kimi xırda uşaqları başına yığıb oynayırdı. Bir gün Kəmalə yenə, nədənsə həyətin iri uşaqlarından incimişdi, divar dibində durub diyircəkli araba sürən oğlanlara baxırdı. Onlar qızcığazı arabaya mindirmək əvəzinə: «əl-ayağa dolaşma, əzilərsən, sonra bütün günü zığıldayıb zəhlə tökərsən», deyirdilər. Arabanın diyircəyi tez-tez ilişirdi. Uşaqlar ha əlləşirdilər, düzəldib rahat sürə bilmirdilər. Birdən Kəmalə özünü saxlaya bilməyib dilləndi:

—Siz dayanın, mən bu saat düzəldim.

Kəmalənin sözünə uşaqlar gülüşdülər, sonra nə fikirləşdilərsə:

—Yaxşı, — dedilər, — al düzəlt. — Özləri də maraqla tamaşa etməyə başladılar.

Kəmalə evə qaçdı, bir dolça su gətirdi, suyu arabanın çarxına tökdü, sonra dedi:

—Hə, di sürün!

Onun səsində elə bir möhkəmlik var idi ki, oğlanlardan biri hətta gülümsündü, arabanı onun əlindən alıb sürdü, doğrudan da, diyircək asanlıqla hərəkətə gəldi. Uşaqlar bir səslə:

—Ay sağ ol, Kəmalə! — deyib onu da özlərilə oynamağa çağırdılar.







## SAĞ ƏL

Bir dəfə bizə gələn qonaqlardan biri balaca Kəmaləyə belə bir sual verdi:

—A qızım, sağ əlin hansıdır?

Qızım duruxdu, deyəsən o sağ əlini unutmuşdu. Sonra tez stuldan endi. Qonaqla biz onun dalınca baxırdıq. Kəmalə mətbəxə qaçdı. Çox keçmədən qayıtdı, başı söhbətə qarışan qonağa yaxınlaşdı. Əlində tutduğu qaşığı yuxarı qaldırdı, şən və uca bir səslə dedi:

—Bax, sağ əlim budur.



## XARDAL

Bir dəfə işdən evə qayıdanda qızımın həyətdə, balaca kətilin üstündə oturub gəlinciyini yırğaladığını gördüm. Kəmalə həmişəki tək məni görcək quş kimi uçub qabağıma yüyürmədi. Mən ona yaxınlaşdıqda yerindən qalxmadı, qarşısında çöməldim. Qızımın üzü çox qəmli idi, ürəyim əsdi. Bəlkə uşaq xəstələnib deyə, həyəcanlandım. Soruşdum:

—Sənə nə olub, qızım?

O, dodaqlarını büzdü, titrək səslə dedi:

– Məni məktəbə götürməyəcəklər...

—Niyə?

—Mənim ağlım çatmır...

Mən donub qaldım:

— Bunu sənə kim deyib, qızım?

—Nazlı xala! Mən onların Toplanına xardal sürtülmüş



çörək verirdim. İstəyirdim görüm, it xardal yeyər, ya yox. Bunu Nazlı xala gördü, mənə dedi ki, sənin ağlın çatmır. Səni məktəbə götürməyəcəklər.

Mən məsələnin nə yerdə olduğunu anladım, qonşu qadının sözü uşağın ürəyinə bərk toxunmuşdu, bunu ona unutdurmaq üçün dedim:

—Saymağı unutmamısan ki? Bir say görüm?!.

Kəmalə tez bildiyi rəqəmləri saydı, sonra da gözlərini üzümə zillədi.

—Qızım, lap yaxşı saya bilirsən. Axı sən mənim ağıllı balamsan. Səni məktəbə götürəcəklər. Amma bundan sonra itə xardal vermə.

Qızım şənləndi, gəlinciyini atıb-tutdu, yanımca düşüb hoppana-hoppana evə yollandı, qapıdan girənəcən elə hey deyirdi:

—Ay can, məni məktəbə götürəcəklər.





## GÜNƏŞ

Kəmalənin atası uzaq şimal kəndlərindən birində işləyirdi. Biz də orada yaşayırdıq. Burada qış olduqca uzun, qar çox, günəşli gün isə lap az idi. Bir dəfə yeni ili qarşılamaq üçün hazırlıq görürdüm, axşama qonağımız da var idi: bu, öz ailəsilə birlikdə Özbəkistandan bura gəlmiş bir mühəndis idi. Kəmalə isə hey əl-ayağıma dolaşır, həyətdə oynamaq üçün icazə istəyirdi. Bayırda bərk soyuq olduğundan onu buraxmırdım.

—Bəs haçan olar?

—Günəş çıxanda.

—Bəs günəş haçan çıxacaq?





Mən qızımın dolu kimi dalbadal yağdırılan suallarından yaxa qurtarmaq üçün dedim:

—Axşam bizə bir xala qonaq gələcək, onun yaşadığı yerdə həmişə günəş olur, ondan soruşarsan, deyər...

Qızım susdu, mən də rahat öz işimi görməyə başladım. Amma arabir ona baxırdım; Kəmalə küncdə öz

oyuncaqlarını qabağına töküb gəlin-gəlin, evcik-evcik oynayırdı.

Axşam oldu, qonaqlarımız bir qədər gecikmişdilər, qızımın yuxusu gəlirdi, amma yatmaq istəmirdi, nigarançılıqla soruşurdu: — Anacan, bəs qonaqlarımız niyə gəlmədi?

—İndi gələrlər, qızım.

Elə bu vaxt zəng çalındı, Kəmalə, atası ilə qapını açmağa getdi, qonaqlarımız gəldilər, onların üst- başları tamam qar içində idi, lap şaxta babaya oxşayırdılar. Səadətxon kürkünü çıxarıb mənimlə görüşdü, yanımda duran qızımı görüncə qucaqlayıb soruşdu:

—A totuq qız, sən hələ yatmamısan?

—Yox, mən sizi gözləyirdim.

Qonaqlar gülüşdülər, səhərki söhbəti unudan mən də onlara qoşuldum.

—Hə, görünür ki, qonaqları çox istəyirsən!

—Yox...

Kəmalə Səadətxonun dizlərini qucaqlayıb qara gözlərini onun üzünə zillədi, soruşdu:

—Anam dedi ki, sən günəş olan yerdən gəlmisən, bəs bura günəş haçan gələcək?..





## ELÇİNİN DƏRSİ

Kəmalənin özündən böyük qardaşı Elçin məktəbdə idi. Kəmalə qardaşının kitablarını ortaya töküb şəkillərinə baxır, məktəbə gedəcəyi günü arzulayırdı. Bunu görən nənə kitabları qızın əlindən alıb dedi:

—Kitab da oyuncaq olub?

—Oynamıram ki, nənəcan, dərs oxuyuram.

—Dayan, dayan, axşam Elçin gələr, dərsini verər.

Qardaşının məktəbdə zəif oxuduğunu böyüklərdən eşitmiş Kəmalə dedi:

—Eh! Elçin öz dərsini bilir ki, mənimkini də versin?



## MƏSTAN VƏ DƏRMAN

Kəmalə mətbəxin qapısını açıq qoymuşdu. Sibirdən gətirdiyimiz iri, tüklü pişik əti stolun üstündən çəkib yerə salmış, nimçəni sındırmış, əti də yemişdi. Mən pişiyi döymək istədim, Kəmalə qoymadı:

—Anacan, Məstanı vurma, qapını mən açıq qoymuşam.

Mən də yarıhənək, yarıgerçək Kəmaləyə dedim:

—Onda get, Məstanın əvəzində küncdə dur.

Bundan bir neçə gün sonra qızım xəstələndi; yumruca yanaqları qızardı, qızılgül qönçəsi kimi zərif dodaqları qaysaqlandı. Həkim gəldi, dərman yazdı. Sərin, şəfalı dərmanlardan qızımın gözləri açıldı, şana kirpikləri üzünə yayıldı, gülümsədi, evimiz işıqla doldu.

—Ana, — dedi, — qoy dərmanın qalanını da mənim əvəzimə Məstan içsin, axı bu dəfə qapını o açıq qoyub, məni soyuğa verib.





## DİŞ

Qonşumuzun balaca oğlu bu il məktəbə gedirdi. Evlərində toy-bayramdı, dəftər-kitab alan kim, çanta dalınca qaçan kim, Əkrəmin əyninə yeni məktəb forması ölçən kim... Əkrəm sevincindən atılıb-düşürdü. O, öz kəsik burnunu dik tutub gəzir, bu il məktəbə getməyən Kəmaləyə heç məhəl qoymurdu, Kəmalə qaşqabağını tökmüşdü.

—Nənə, ay nənə!

—Nədi, bala?

—Əkrəm məktəbə gedir, mən yox. O ki mənim boydadı!.»

—Yox qızım, sənin yeddi yaşın hələ tamam olmayıb. Onun yeddi yaşı var. Görmürsən dişlərini tökür?!

Axşam Kəmalənin dayısı bizə qonaq gəldi, Kəmalə əlindəki sapı dayısına uzadıb dedi:

—Dayı, ay dayı, mənim də dişlərimi çək, qoy elə bilsinlər ki, yeddi yaşım var, məni məktəbə götürsünlər.







## İNƏK

Kəmalə Baxtı nənə ilə kənddə qonaq olanda çox məzəli işlər tutub. Bunların bəzisini danışanda Baxtı nənə həmişə uğunub gedərdi.

—Bir dəfə südü sağıb, sərnici eyvanın qabağında qoyub getmişdim inəyi bağlayım. Alabaş tənbəllik eləməyib südü tərtəmiz içir. Qayıdıb itin başını sərnicin ağzında görəndə deyə-deyə qaldım: hayıf! hayıf!

Birdən bu Kəmaləciyəz nə desə yaxşıdır:

—Niyə darıxırsan, ay nənə, Alabaş südü içib də, inəyin məməşlərini yeməyib ki! Sabah yenə sağarsan.

—Əlim üzümdə qaldı, indiyəcən uşağın bu sözü yadıma düşəndə utanıram.



## YAĞIŞ

Baxtı nənə deyirdi ki, bir dəfə mətbəxdə paltar yuyurdum. Kəmalə də yanımda oturub balaca ləyəndə gəlinciyinin donunu isladırdı. Dedim:

—Qızım, a qızım, dur gör, yağış çiləmir ki, paltarlarımızı suya çəkib sərək.

Bu dəmdə Alabaş qapıdan içəri soxuldu, bunu görən Kəmalə dedi:

—Nənə, ay nənə, əlini Alabaşın belinə çək, əgər yaşdırsa, yağır.



Azf-291912



## TÜFEYLİ

Kəmalənin hər şeyi görüb eşidən kimi «nə üçün» deyən çağları idi, bu günlərdə o, radioda, televizorda tez-tez tüfeyli kəlməsini eşidib məndən soruşdu:

—Ana, ay ana, tüfeyli nədi?

—Heç bir iş görməyən, avara-avara veyillənən tənbəl adam.

O həyəcanla soruşdu:

—Mən tüfeyli deyiləm ki?

Gülümsədim, dedim:

—Əlbəttə, yox, qızım, sən həmişə mənə, nənənə kömək edirsən.

Azərbaycan Milli Kitabxanası

...Qonşumuz Səlimə xalanın bir xasiyyəti var idi, həmişə bizə gələndə qayınanamla dərdləşər, işsiz-gücsüz, boş-bekar gəzən oğlu Əsəddən danışar, deyərdi: «Ay bacı, nə oxuyan kimi oxumadı, nə də işləmir, heç bilmirəm bu gədənin əlindən nə eləyim?» Bir dəfə yenə Səlimə xala oğlundan şikayətlənəndə, gəlinciyi ilə oynayan Kəmalə qocaların söhbətinə qulaq verib birdən arvadın sözünü kəsir:

— Nənə, ay nənə, onda Səlimə xalanın oğlu tüfeylidir ki...

Qonşusunun könlünü qırmaq istəməyən nənə dedi:

— Qızım, böyük danışanda, kiçik qarışmaz...





# KİTABIN İÇİNDƏKİLƏR

Diyircəkli araba ....................3
Sağ əl ....................5
Xardal ....................6
Günəş ....................8
Elçinin dərsi ....................11
Məstan və dərman ....................12
Diş ....................13
İnək ....................15
Yağış ....................16
Tüfeyli ....................17

*Джафарзаде Азиза Мамед гызы*
**РАССКАЗЫ О ДОЧЕРИ**
(*на азербайджанском языке*)

Rəssamı: **D. Kazımov**

Redaktoru: **K. Həsənova**
Bədii redaktoru: **F. Quliyev**
Texniki redaktoru: **N. Nəsirov**
Korrektoru: **M. Gülüşova**

Yığılmağa verilmiş 9/VII 1964-cü il.
Çapa imzalanmış 13/X 1964-cü il. Kağız formatı 60x84
Fiziki çap vərəqi 1,25. Şərti ç. v. 1,12. Uçot nəşr. vərəqi 1,2.
Sifariş № 531. Tirajı 10000. Qiyməti 4 qəp.

Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, Hüsü Hacıyev küçəsi, № 4.
Azərbaycan SSR Nazirlər Soveti Dövlət
Mətbuat Komitəsinin 26 komissar adına mətbəəsi,
Bakı, Əli Bayramov küçəsi, № 3.

1m

Azf- 291912

Çapa imzalanmışdır: 25.03.2016.
Formatı: 60x84 1/16.
Həcmi: 1 ç.v.
Sifariş 7.
Tiraj: 500.

Kitab "Nağıl Evi-N" mətbəəsində
ofset üsulu ilə çap olunmuşdur.

*Təkrar çap zamanı ilk nəşrin*
*kitab göstəriciləri olduğu kimi saxlanılmışdır*

Bərpanəşr

**Bakı-2016**